# Seminar-müşavirə keçirilmişdir

Yanvarın 6-da Qəbələ Rayon İcra Hakimiyyətində seminar-müşavirə keçirilmişdir. Müşavirədə rayonun idarə, müəssisə, təşkilat rəhbərləri və inzibati ərazi nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə RİH başçısının birinci müavini Abil Ağasəfov açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış





etmişdir. O, əvvəlcə “20 yanvar” faciəsinin iyirmi beş illiyi ilə bağlı rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin imzaladığı sərəncama əsasən tərtib edilmiş tədbirlər planını iştirakçılara təqdim etmiş, görüləcək işlərin icra müddəti və icraçıları barədə məlumat vermişdir.

Sərəncama əsasən tərtib olunmuş tədbirlər planında ümumxalq hüzn gününün layiqincə keçirilməsi üçün bütün təşkilatlar, o cümlədən mədəniyyət, təhsil, gənclər və idman idarələri qarşısında konkret vəzifələr qoyulmuşdur. Yanvarın 20-dək müxtəlif səpkili mövzu tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulan iş planının artıq icrasına başlanılmışdır.

Sonra inzibati ərazi nümayəndəliklərində notariat əməliyyatlarının aparılması qaydaları barədə rayon məhkəməsinin hakimi Vahid Sadıqov, vətəndaşların həqiqi hərbi xidmətə çağırılması və ilkin hərbi qeydiyyata alınması ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin əməkdaşı Sadiq Əbilov, əraziyə yeni gəlmiş vətəndaşların qeydiyyatının aparılması mövzusunda rayon polis şöbəsi pasport xidmətinin rəisi Elnur Zeynalov, təsərrüfatbaşına uçot kitablarının işlənilməsində yeni qaydalar istiqamətində statistika idarəsinin rəisi Ayaz İskəndərov, yeni tikililərin planlı inşa edilməsi və layihə-smeta sənədlərinin hazırlanması barəsində RİH-nin memarlıq şöbəsinin müdiri Təbriz Abdulxalıqov, 2015-ci ilin uçot hesabat kitablarının kargüzarlıq qaydalarına uyğun tərtibi, vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinə diqqətin artırılması ilə əlaqədar RİH-nin sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Fuad Zəkəriyyəzadə, icra hakimiyyəti başçısının yerlərdə səyyar görüş-qəbullarının və 2014-cü ildə inzibati ərazi nümayəndəliklərində görülmüş işlərin yekunlarına dair hesabt yığıncaqlarının keçirilməsi barədə RİH-nin ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zülfüqar Cəfərov məlumat vermişlər. Yekunda seminar-müşavirə iştirakçılarının çoxsaylı sualları cavablandırılmışdır.

Müşavirəni RİH başçısının birinci müavini Abil Ağasəfov yekunlaşdırmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Bəzənmişdir çil-çıraqlı yolkalar

Ötən il dekabrın 27-də Nic qəsəbə 1 saylı uşaq bağçasında Dünya Azərbaycanlılarının



Həmrəyliyi Günü və Yeni il münasibətilə şənlik keçirilmişdir.

Bağçanın bütün otaqları bayram libasına bürünmüşdü. Uşaqlar hərarətlə Şaxta babanı və Qar qızı qarşıladılar. Uşaqlar Şaxta baba mahnısını xorla oxuyurdular:—«Şaxta baba, şaxta can, hardasan bu vaxtacan». Şaxta baba qapını döyür və içəri girir. Başı qarlı dağları çox çətinliklərlə aşaraq uzun-uzadı yollarla gəlib çıxdığını bildirdi. O, Qar qızı da özü ilə gətirmişdi. Uşaqların ən çox sevindikləri isə Şaxta babanın onlara gətirdiyi yeni il hədiyyələri oldu.

Bağçanın müdiri Janna Asaturi uşaqların, valideynlərin, bağça işçilərinin qarşıdan gələn bayramlarını təbrik etdi, onlara uğurlar, ölkəmizə sülh və əminamanlıq arzuladı.

Bağçanın ən fəal işçiləri Flora Ayruti və Svetlana Koçari hədiyyələrlə mükafatlandırıldılar.

Uşaqlardan Qamila Qalusari, Raul Zelari və başqalarının şən çıxışları iştirakçılarda xoş ovqat yaratdı.

Valideynlərdən Elvira Piralova, Sergey Cotari və başqaları belə gözəl tədbirin təşkilatçılarına minnətdarlıq etdilər.

Bağça rəhbərliyi tərəfindən uşaqlara hədiyyələr verildi.

# Bum qəsəbə uşaq bağçasında

Bum qəsəbə uşaq bağçasında keçirilən Yeni il şənliyində bağçanın uşaqları, valideynlər iştirak etmişlər.

Bağçanın müdiri Rahilə Sədirova şənlikdə çıxış edərək Yeni il münasibətilə bağçada tərbiyə alan uşaqları, onların valideynlərini və iş yoldaşlarını təbrik etmişdir. Sonra uşaqlar Yeni ilə aid şerlər söyləmiş və rəqs etmiş səhnəciklər nümayiş etdirmişlər. Şaxta baba balacalara Yeni il hədiyyələri təqdim etmişdir.

Uşaqlardan Ömər Aslanov, Ruslan Alcanlı, Tuncay Dadaşov, Amil Şəfiyev, Fatimə Yolçüyeva tədbirdə daha yüksək fəallıq göstərmişlər.



Valideynlərdən Məhbubə Aslanova, Günay Qaragözova, Sədaqət Nəsibova və başqaları çıxış edərək bağçanın müdirinə və tərbiyəçilərə yeni il arzularını bildirmişlər.

**Nərgiz BABAYEVA,**
**bağçanın tərbiyəçisi.**

# Qəbələ məktəbliləri Heydər Əliyevin zəngin irsinə böyük maraq göstərirlər

Qəbələ məktəbliləri ulu öndər Heydər Əliyevin zəngin irsini böyük maraqla öyrənirlər. Noyabr ayının 3-dən başlayaraq rayonun Heydər Əliyev mərkəzində həftə ərzində iki dəfə keçirilən açıq dərslərin hər birində 40-a qədər yuxarı sinif şagirdləri iştirak edir. Təkcə dekabr ayında keçirilən dərslərdə rayonun Bılıx, Məlikli, Çuxur Qəbələ, Aydınqışlaq, Əmirvan, Zarağan, Soltannuxa, Böyük Pirəlli, Qəbələ şəhər 5 saylı, Həmzəlli, Quşlar, Tikanlı, Uludaş, Qəmərvan, Bum Qəsəbə kənd tam orta məktəblərindən 390 nəfərə qədər şagird iştirak etmişdir. Dərsləri peşəkarlığı və metodiki hazırlığı ilə fərqlənən müəllimlərindən Azad Hacıyev, İlham Ədilov, Zamiq Əzizov, Şəlalə Zəkəriyyəyeva, Esmira Əsədova, Nuriyyə Məmmədova, Natiq Ramazanov, Mayıl İsmayılov tədris etmişlər.

Şagirdlər açıq dərslərdə «Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur», «Ümummilli lider Heydər Əliyevin ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır» mövzularını öyrənir və dahi şəxsiyyətin həyat və fəaliyyətini, həmçinin Azərbaycana rəhbərliyinin hər iki dövrünə aid qeyri-adi məqamları barədə məlumatları maraqla dinləmişlər. Dərslərdə Heydər Əliyevin müstəqil Azərbaycanda dövlət quruculuğu sahəsində genişmiqyaslı gərgin fəaliyyəti, bu yolda qarşıya çıxan maniə və çətinliklərin dəf olunması, ölkədə siyasi sabitliyin və iqtisadi dirçəlişin yaranması və sair məsələlər şagirdlərin diqqətini xüsusi olaraq cəlb etmişdir.

Hər bir qrup keçilən iki akademik dərs saatının sonunda Heydər Əliyev Mərkəzinin bədii kompozisiya salonunda nümayiş etdirilən Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto-stendlərlə tanış olmuş, onun ömür yolunu əks etdirən sənədli filmə tamaşa etmişlər.

Mərkəzdə Heydər Əliyev açıq dərsləri yeni ildə də davam etdiriləcəkdir.

**HEYDƏR ƏLİYEV MƏRKƏZİ.**